**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.3.195**

**GÜNAY MƏMMƏDOVA***

# TÜRKİYƏNİN İĞDIR VƏ QARS BÖLGƏLƏRİNDƏ APARILAN MUSİQİ FOLKLORU EKSPEDİSİYALARI

*Folklor ekspedisiyaları bir cəmiyyətin mədəni və sənət irsini başa düşmək və qorumaq üçün aparılan sistematik tədqiqatlardır. Bu ekspedisiyalar xalq musiqisinin və folklorun müxtəlif aspektlərini qeydə alaraq, ənənəvi musiqilərin yaşadılmasına və araşdırılmasına kömək edir. Buna görə də bu sahədəki tədqiqatlar çox əhəmiyyətlidir. Bu tədqiqatın məqsədi Türkiyənin İğdır və Qars bölgələrindəki musiqi folkloru tədqiqatlarının əhəmiyyətini ortaya qoymaqdır. Tədqiqatın nəzəri çərçivəsini yaratmaq üçün ədəbiyyat icmalı aparılmış, İğdır və Qars bölgələrindəki musiqi folkloru toplama işlərinə dair məlumatlar araşdırılmış, bu sahəyə uyğun olan mənbələrin təhlili həyata keçirilmiş və araşdırmaya daxil edilən bölgələrdə müəyyən dövrlərdə tədqiqatçılar tərəfindən həyata keçirilmiş nəşrlərin müəyyən qismi nəzərdən keçirilmişdir.*

*Türkiyədə musiqi folkloru toplama işləri XX əsrin əvvəllərindən sistematik şəkildə aparılmağa başlamışdır. 1920-ci illərdə fəal şəkildə aparılan toplama işləri bir müddət durğunluq yaşadı. Daha sonra 1930-cu illərdə məşhur Macar bəstəkarı Bela Bartok və Alman bəstəkarı Paul Hindemitin Türkiyəyə ekspedisiya aparmağa dəvət olunması ilə toplama işlərində yenidən canlanma başladı. Ankara Dövlət Konservatoriyası yaradıldıqdan sonra orada xalq musiqisini araşdıran bölümdə çox sayda türk musiqişünası və bəstəkar iştirak etdi. Təəssüf ki, Türkiyənin müxtəlif bölgələrində aparılan toplama işləri Qars və İğdır bölgələrində daha az həyata keçirilib. Buna görə də Qars bölgəsinin musiqi folkloru toplama işlərinin aparılması böyük əhəmiyyət kəsb edir.*

*2000-ci ildən bəri bu bölgələrin folklor tədqiqatları ayrı-ayrı tədqiqatçılar tərəfindən aparılmışdır. Lakin bu tədqiqatlar peşəkar musiqişünaslar tərəfindən aparılmadığı üçün toplanmış folklor nümunələrinin musiqi yönü tamamlanmamışdır. Musiqişünaslar, etnoqrafçılar və digər tədqiqatçılar xalq musiqisi nümunələri vasitəsilə müxtəlif mədəni və tarixi kontekstləri analiz edə bilərlər. Bu toplama işləri həm akademik tədqiqatlar, həm də təhsil üçün əhəmiyyətli bir mənbə təmin edir. Konservatoriyalarda magistr dissertasiyaları mövzularının xalq musiqisi və musiqi folkloru ilə bağlı olması bu işi daha sistemli hala gətirə bilər. Buna görə də gənc tədqiqatçılar bölgə tədqiqatları apararaq unudulmağa başlamış xalq musiqi nümunələrini toplamaq və nota yazmaqla böyük uğur qazana bilərlər.*

***Açar sözlər:*** *folklor, musiqi, toplama, İğdır, Qars, xalq musiqisi*

## Giriş

Türkiyə ərazisinə görə dünyanın 37-ci böyük ölkəsi olaraq yeddi coğrafi bölgəyə bölünür. Bunlar, Aralıq dənizi, Şərqi Anadolu, Egey, Cənub-Şərqi Anadolu, İç Anadolu, Qara dəniz və Mərmərə bölgələridir.

Yeddi coğrafi bölgədən biri olan Şərqi Anadolu əhali sıxlığına görə Türkiyədə ən az əhalisi olan hissəsidir. Haqqında danışacağımız İğdır və Qars, Şərqi Anadolunun Ərzurum-Qars bölümünə aiddir.

## Əsas təhlil

Aparılan arxeoloji qazıntılar bu bölgələrdə həyatın olduqca uzaq keçmişdən var olduğunu, ilkin yaşayışın paleolit və mezolit dövrlərinə təsadüf etdiyini göstərir. Bu qədim torpaqlarda müxtəlif sivilizasiyalar var olmuş və tarixin müxtəlif dövrlərində bu ərazilərdə yaşayan xalqlar öz adət-ənənələrini, milli mədəniyyətini qorumağa çalışmışlar. Qədim folklor ənənələrinin öyrənilməsi məsələsi isə tarixin çox gec çağlarında, demək olar ki, son əsrlərdə mümkün olmuşdur.

Ümumiyyətlə, Türkiyədə musiqi folklorunun toplanılması məsələsi XX əsrin əvvəllərinə təsadüf edir. Folklorun tərbiyəvi və estetik əhəmiyyəti olduqca böyükdür. Bu baxımdan gələcək nəslin əxlaqi, eyni zamanda bədii-estetik tərbiyyəsində mühüm rolu olan folklor nümunələrinin tədqiqi və təbliği çox vacib və zəruri məsələlərdən hesab olunur. Xalq yaradıcılığı nümunələrinin araşdırılması, toplanılıb yazıya alınması ilə məşğul olan sahə "Folklorşünaslıq" adlanır. Musiqi folkloru sahəsini araşdıran elm isə etnomusiqişünaslıq adlanır. Etnomusiqişünaslıq xalq musiqisini, ənənəvi musiqi mədəniyyətini, onun sistemli şəkildə öyrənən elmdir. Musiqi elminə ilk dəfə termin olaraq 1950-ci ildə hollandiyalı musiqişünas Y.Kunst tərəfindən daxil edilib. Folklorun araşdırılması zamanı bəzən tarix kitablarından əldə edə bilməyəcəyimiz faktların aşkara çıxdığının şahidi oluruq. "Musiqi əsərləri başqa mənbələrdə yazılmayan hiss və hadisələri, təcrübələri söyləyərlər." (Small, 1996: 2)

Avropada XIX əsrin I yarısında milliyətçilik və digər siyasi hadisələrin, müxtəlif intellektual hərəkatların fonunda milli folklor araşdırmaları aparılırdı. Həmin dönəmdə Osmanlı imperiyasında

yaşayan insanlar belə bir araşdırmaya ehtiyac duymurdular. Lakin bu ərazilərdə yaşayan xalqların yerli mədəniyyəti bəzi qərb tədqiqatçılarının diqqətini çəkmiş, onlar qeyri-peşəkar tərzdə araşdırma aparmağa başlamışdılar.

**Türkiyədə musiqi folkloru çalışmaları.** Etnomusiqişünaslıq — musiqi və mədəniyyət arasındakı əlaqələri öyrənən elm sahəsidir. Bu sahədəki tədqiqatlar musiqinin sosial, mədəni və tarixi kontekstlərini anlamaq üçün müxtəlif metodlardan istifadə edir. Etnomusiqişünaslıq musiqinin yalnız estetik bir obyekt olmadığını, həm də mədəni identitetlər, sosial strukturlar və ünsiyyət formaları ilə bağlı dərin mənalar daşıdığını vurğulayır.Məlumdur ki, xalq yardıcılığı nümunələri şifahi şəkildə dildən-dilə, nəsildən-nəsilə ötürülmüşdür. Bu şifahilik isə bir sıra folklor nümunələrinin zaman-zaman unudulmasına, bəzilərinin dəyişikliyə uğramasına səbəb olmuşdur. Unudulmağa üz tutmuş musiqi folkloru nümunələrinin nota alınma məsələsi isə etnomüsiqişünaslığın ən aktual problenmlərindən hesab edilir.

Türkiyədə musiqi folkloru toplama çalışmaları yerli tədqiqatçılar tərəfindən məhz XX əsrin əvvəllərində start götürmüşdür. "Ziya Gökalp, Fuad Köprülü, Rıza Tevfik Bölükbaşı kimi mütəfəkkirlərin xalq mədəniyyətinə və xalq musiqisinə duyarlı olmağı bir milli mübarizə olaraq göstərməkləri, xalq musiqi araşdırmaları üçün ən önəmli motivasya olmuşdur. Xalq ruhunu tanıyan yeni Türk gəncliyi milli kimliyinə də daha möhkəm sarılacaqdır. Bu görüşün və dönəmin sosial ehtiyaclarının qaçılmaz nəticəsi olaraq xalq musiqisi tədqiqatlarına başlanılır. Türkiyə cümhuriyyətinin qurucuları, Osmanlı imperatorluğunun tam əksi olaraq, xalq musiqisinin necə önəmli bir mədəniyyət nümunəsi olduğunun çox tez başa düşmüş və bu sahədəki çalışmalara vaxt itirmədən başlamışdılar...

...Fonoqrafın icadı ilə birlikdə yer üzünün dörd bir tərəfində başlayan xalq nəğmələrinin səs yazılarının ilklərindən biri Anadolu bölgəsində həyata keçirilmişdir. Anadolu torpaqlarında fonoqrafla ilk xalq musiqisi səsyazısı 1901-ci ildə Felix von Luchan tərəfindən Ayıntapda edilmişdir. Bu növ bəzi səs yazılarının İstanbulda da yenə o dönəmlərdə yazıldığını bilirik. Ancaq planlı və dövlət dəstəkli ilk çalışma, Maarif Vəkalətinin 1925-ci ildə başlatdığı toplama işləridir. Seyfəddin Asəf və Sezai Asəfin fonoqraf istigadə etmədən etdiyi toplama işləri Qərbi Anadoluda həyata keçirilmişdir."(http://www.turkishmusicportal.org/tr/turk-muzigi-turleri/turk-halk-muzigi derlemeler)

XX əsrin 20-ci illərində böyük sürətlə aparılan tədqiqatlar təəssüf ki, sonrakı illərdə sükut yaşamışdır. Yalnız 30-cu illərin sonunda məşhur macar bəstəkarı və etnomusiqişünas Bela Bartok 1936-cı ildə rəsmi dəvətlə Türkiyəyə gəlir. Bu səfərdə məqsəd musiqi folklor nümunələrinin toplanılması və nota yazılması idi. Əvvəlcə İstanbulda konservatoriyanın arxivində valları incələyən Bartok bu valların o zamankı texniki vasitələrin gücünə görə olduqca mükəmməl olduqlarını yazırdı. Onun qatıldığı ekspedisiyalarda kəndlərdən folklor söyləyicilərindən 130 nəğmə toplanılmışdı. (Gürçayır, 2013: 68-69) Doğrudur, Bartok Qars bölgəsində ekspedisiyada olmamışdır, ancaq bütün bu ekspedisiyaların sonunda Ankara Maarif Müdiri Cavad bəy ilə gələcəkdə nələr edəcəkləri mövzusunda müxtəlif görüşmələr baş tutur. Bu görüşmələrdə Türk hökümətinin Türk xalq musiqisi araşdırmalarını ən qısa zamanda başlatmağa qərarlı olduqlarını gördüyünü bildirməkdədir. Nümunələrin sistemli bir şəkildə toplanılması həm Türk, həm Macar həm də bütün Şərqi Avropa xalq musiqisi araştırmaları üçün xeyir gətirəcəkdir. (https://dergipark.org.tr/tr/download/article-file/321380)

Türkiyədə bir "Xalq musiqi arxivi"nin qurulmasının mühüm olduğunu ifadə edən Bartok, hazırladığı hesabatda, "…Kənd musiqisini yerində, yəni birbaşa kəndlərin özündə vallara və ya səsyazanlara qeyd etmək və bunları mühafizə etmək, alınan parçaları mümkün qədər tam olaraq nota almaq…" vacibliyini vurğulamışdır. Türkiyədə olduğu müddət ərzində Adana, Osmaniyə, Mersin ve Tarsusun kəndlərini gəzərək toplamalar həyata keçirən Bartok, 25 noyabrda çalışmalarını tamamlayaraq Budapeştə qayıtmışdır. Topladığı nəğmələri nota alaraq poçt vasitəsilə Dil və Tarix Coğrafiya Fakültəsində məsul olan Macar professor Laszlo Rasonyiyə göndərmişdir. (s.444-445 https://ctad.hacettepe.edu.tr/18_35/14.pdf)

1935-ci ildə Mustafa Kamal Atatürk musiqi təhsilinin yenidən dirçəldilməsi yolunda müəyyən tapşırıqlar vermişdi. Türkiyənin cənub hissəsində yenidən folklor toplama işinə başlamış, daha sonra alman bəstəkarı Paul Hindemit Ankara Dövlət Konservatoriyasının yaradılması məsələsi ilə bağlı olaraq Türkiyəyə dəvət olunduğu zaman Türkiyədə xalq musiqisinin toplanılma məsələsinin önəmini vurğulamışdır. P.Hindemitə Türkiyədə yaşayıb burada işləmək təklifi etsələr də o, bunu qəbul etmir. Universal ve Türk Polifonik Müzik Eğitimi Programında devlet müşaviri görevini üstlenmiş, 1935-1937-ci illərdə qısa müddətli olaraq Türkiyəyə gələrək görülən işləri nəzərdən keçirmişdir.

Bu müddətdə öncəliklə Ankaradakı məktəbləri gəzib musiqi dərslərini dinləyən Hindemit,

daha sonra xalq nəğmələri üzərində dayanmağa qərar vermiş, daha əvvəl edilən toplamaları diqqətlə incələmiş, Anadolu folklorunun ən qədim nəğmələrini harmonizə etməyə çalışmış, ancaq nəticədən məmnun qalmamışdır. Buna görə də ilk mərhələdə Türk bəstəkarlarının harmonizasiya üsullarını təhlil etməyi daha doğru olacağına qərar vermiş, bundan sonra ona Ankara Radiosunun Klassik Türk Musiqisi və Yurtdan Səslər Xorlarının icraları dinlədilmiştir. (s.437 https://ctad.hacettepe.edu.tr/18_35/14.pdf )

Ankara Dövlət Konservatoriyası yaradılan kimi orada xalq musiqisini tədqiq edən bir bölmə yaradıldı və buraya çox sayda musiqi tədqiqatçıları və bəstəkarlar cəlb olundular. Onlar arasında Müzəffər Sarısözən və Halil Bedi adlı musiqiçilər demək olar ki, bütün ekspedisiyalarda iştirak edirdilər.

Hindemit ve Bartokun, tövsiyələrini diqqətə alan məsul şəxslər, 1937-ci ildə Ankara Dövlət Konservatoriyası içində "Türk Xalq Nəğmələri Arxivi /Folklor Arxivi"nin qurulmasına imkan yaratmış, bir müddət sonra bəstəkar və tələbələr bu arxivdən istifadə etməyə başlamışdırlar." (s. 446 https://ctad.hacettepe.edu.tr/18_35/14.pdf)

"Şərgi Anadoluda ilk elmi xalq musiqisi tədqiqatları 1937-ci ildə Əhməd Adnan Sayqunun xalq mahnı və oyun havalarından ibarət olan toplama çalışmaları ilə başlamışdır. Sonralar Şahin Karaşahinin (Türkiyənin Qars vilayətində anadan olmuş xalq sənətçisi, aşıq) yerli araşdırma və təhsil çalışmalarının Qarsda xalq musiqisinin yayılmasında önəmli rolu olmuşdu. Və bu zaman çox sayda İğdır, Ardahan, Qars musiqi folkloru nümunələri üzə çıxarıldı." (Turhan S., Şahin S., Şimşek G., 2010: 22)

Həmin dönəmdə Qarsda Şahin Karaşahin tərəfindən yaradılan gənclərdən ibarət "Doğudan sesler korosu" xor kollektivi və bunun ardınca radionun nəzdində yaradılan "Serhattan sesler korosu" toplanan xalq musiqi nümunələrini ifa edərək onların yayılmasına səbəb olmuşdu. O zamanlar xaq musiqi sənətçiləri böyük həvəslə çalışır, "Aşıq gecələri" təşkil olunur, radioda tez-tez aşıqların proqramları yayımlanırdı. Bunu söyləmək yerinə düşər ki, Qarsda aşıq ənənələri hələ də davam etdirilir. Aparılan araşdırmalar göstərir ki, Qarsda yaşayan aşıqlar özlərindən əvvəl yaşamış aşıqların ənənələrini davam etdirir, xüsusilə Aşıq gecələrində böyük həvəslə aşıqlar çalıb-oxuyurlar.

Şərqi Anadolu bölgəsində dövlət dəstəyi ilə toplama işləri isə 1950-ci illərə təsadüf edir. Bu illərdə Ankara Dövlət Konservatoriyasının ekspedisiyaları zamanı Ağrı, Van, Artvin və Qars bölgələrindən 382, daha sonra TRT (Türkiye Radyo Televizyon Kurumu) tərəfindən 1971-ci ildə Ərzurum və Qars bölgələrindən 250-yə qədər folklor nümunəsi toplanılmışdır.

TRT 1967-ci ildə on beş uzmandan ibarət olan yeddi ekpedisiya qrupu ilə Trabzon, Ərzurum, Van, Qaziantep, Burdur, Balıkəsir, İzmir vilayətləri və ətrafında on beş gün davam edən bir ekspedisiya həyata keçirdilər. Bu müddət ərzində yeddi qrup işləyərək 324 lentə 1738 folklor musiqi nümunəsi yazmışdılar. Bu tədqiqata Gültekin Melahat Oransay, Ülkün Aydoğdu, Serepr Özhan, Cenan Akın, Muammer Sun, Erdoğan Okyay, Numan Büyükgönenç, Veysel Arseven, Işık Duygu Gülöksüz, Talip Özkan, İlhan Baran, Cengiz Tanç, Suzan Koldaş, Kemal İlerici kimi musiqişünas və uzmanlar qatılmışdılar. (https://dergipark.org.tr/tr/download/article-file/28554)

Xalq musiqisi və musiqi folkloru nümunələrinin araşdırılmasına dair XX əsrin müxtəlif illərində bir sıra ədəbiyyatlar çap olunmuşdur. Müasir dövrümüzdə də bu sahədə müəyyən işlər aparılır. 2010-cu ildə çapdan çıxan "Kars, Ardahan-Iğdır türküleri ve oyun havaları" adlı kitab nəşr olunmuş, burada adı çəkilən bölgələrdən ekspedisiyalar zamanı toplanılan çoxsaylı musiqi folklor nümunələri təqdim edilmişdir. "Günümüz etibarilə TRT repertuarına daxil olan Qars, Ərdahan və İğdır bölgələrinə aid olaraq müəyyənləşdirilən melodiyalar bu sayın üçdə birinə uyğun gəlirdi. Bu rəqəm çox azdır. Biz üç sənətçi və tədqiqatçı olaraq apardığımız tədqiqat ilə bu rəqəmi üç dəfədən çox artıraraq 320-yə çatdırdıq. Doğrusu, bu işdə bir az emosional olduq. Yəni, əvvəllər də Qars, Ərdahan, İğdır bölgələrinə məxsus nəğmələr olaraq bildiyimiz, lakin TRT repertuarında hələ də yaxın bölgələr adına qeydiyyatda olan musiqi nümunələrini geri almış olduq. Eləcə də Azərbaycana aid bəzi xalq mahnılarını, eyni zamanda bölgədə çox sevilərək populyarlaşan bəstəkar mahnılarını kitabımıza daxil etdik." (Turhan S., vb. 2010: 8)

2000-ci illərdən başlayaraq bölgənin qədim adət-ənənəsini, yaşam tərzini əks etdirən çoxsaylı ədəbiyyatlar işıq üzü görsə də, bu mənbələrdə musiqi folkloru nümunələrinin not mətni əks olunmamışdır. Buna görə də xüsusilə musiqi nümunələri çap olunan mənbələr azlıq təşkil edir.

2011-ci ildə çap olunmuş "Kars yöresi halk bilimi çalışmaları" (müəlliflər: S.Aydın, K. Alin, İ. Özkaya) və "Karsın somut olmayan kültürel mirası" (müəlliflər: İ.Özkaya, K.Alin, Y.Kop, M.Arıkan)

adlı kitablarda Qars bölgəsinə aid bir sıra folklor nümunələri toplanılmış, bəzi musiqi folkloru nümunələrinin not mətni də verilmişdir. Bu notların bir çoxu *repertukul.*com internet səhifəsindən götülürmüşdür.

TRT-nin arxivində olan və *repertukul.com* adlı internet səhifəsində Türkiyənin bir çox bölgələrindən toplanılan musiqi folkloru nümunələrinin not mətnləri yerləşdirilmişdir. Lakin İğdır və Qars bölgələrinin musiqi folkloru nümunələri digər bölgələrlə müqayisədə azlıq təşkil edir.

Yaxın keçmişdə tədqiqatçıların apardığı araşdırmalar nəticəsində bu bölgələrə aid olan bir neçə musiqi folkloru nümunəsi də nota yazılmışdır. Belə ki, Doğukan Arabul və Cengiz Şengül tərəfindən Türk müziği dergisində bir neçə Qars mahalli oyunlarının notu çap edilmiş, bu oyun havaları musiqi dili və nəzəri baxımdan təhlil edilmişdir. "TRT repertuarında Qars vilayətinə aid sözlü 109 və sözsüz 13 əsər olmaq üzrə cəmi 122 əsər var. həyata keçirilən ekspedisiyalar nəticəsində TRT repertuarında qeydiyyatda olmayan Qars yöresine aid mahalli 22 oyun havası aşkar edilmişdir." (S. 213 https://turkmuzigidergisi.com/index.php/tm/article/view/33 )

Bundan əlavə mən – Günay Məmmədova İğdır və Qars bölgələrində dəfələrlə ekspedisiyalarda olmuş, tərəfimdən aparılan tədqiqatlar zamanı yaşlı nəslin nümayəndələri ilə söhbətlər aparmış, bölgənin musiqiçiləri ilə keçirilən görüşlərdə bölgəyə xas olan musiqi folkloru nümunələrini ilk dəfə nota yazmışam.

**Nəticə**

Tədqiqatlar zamanı gördük ki, şifahi şəkildə dildən-dilə keçən musiqi folkloru nümunələrinin toplanılıb nota köçürülməsi məsələsi aktual olaraq qalır. Folklor musiqisi toplamaları yerli xalq arasında oxunan mahnıları, melodiyaları və nəğmələri əhatə edir. Bu mahnılar adətən anonimdir və xalq arasında nəslərdən-nəslərə ötürülür. Toplamalar yalnız musiqi notlarını deyil, həmçinin mahnı sözlərini, nəğmə dəyişikliklərini və bəzən mahnıların arxa plan hekayələrini də qeydə alır. Bu, musiqinin mədəni kontekstini başa düşmək üçün əhəmiyyətlidir. Toplamalarda mahnıların və musiqilərin necə səsləndirildiyi, hansı alətlərlə ifa edildiyi və hansı ifa ənənələrinin tətbiq edildiyi kimi detallar da mövcuddur. Folklor ekspedisiyaları, ənənəvi musiqilərin və mahnıların zamanla itirilməsinin qarşısını alır. Bu toplamalar, mədəni irsi nəslərdən-nəslərə ötürmək üçün bir körpü rolunu oynayır. Tədqiqatçılar və etnomusiqişünaslar folklor musiqisi toplamaları sayəsində müxtəlif mədəniyyətlərin musiqi ənənələrini araşdıra bilər və musiqilərin sosial, mədəni və tarixi kontekstlərini öyrənə bilərlər. Buna görə də toplama işlərinin davam etdirilməsi olduqca vacib bir məsələdir.

Bu tədqiqat bizə Türkiyədə XX əsrdən başlayaraq toplama işlərinin aparıldığını, bu yolda macar bəstəkar Bela Bartok və alman bəstəkar Paul Hindemitin mühüm töhfələrinin olduğunu göstərir. Daha sonra yerli musiqişünas və bəstəkarların, xüsusilə Ahmet Saygun, Ziya Gökalp, Müzeffer Sarısözen kimi aydınların sayəsində bir çox toplama işləri həyata keçirilmişdir. Folklorla bağlı çox sayda kitab nəşr edilsə də, bu kitabların not nümunələrinin olmaması, əvvəllər xalqın həyatında mühüm rol oynamış xalq musiqisinin, türkülər və oyun havalarının unudulmasına səbəb olur.

**Təklif və tövsiyələr:** Musiqişünaslar, etnografçılar və digər tədqiqatçılar xalq musiqisi toplamaları vasitəsilə müxtəlif mədəni və tarixi kontekstləri araşdıra bilərlər. Bu toplamalar həm akademik araşdırmalar, həm də təhsil üçün mühüm bir mənbə təmin edir. Bu gün universitetlərdə bakalavr və magistr təhsil pillələrində xalq musiqisi ilə bağlı tədqiqat işlərinin hazırlanması bu işi daha sistemli bir formata sala bilər. Buna görə də gənc tədqiqatçılar yerli araşdırmalar apararaq unudulmağa başlamış musiqi nümunələrini toplamaları və nota köçürmələri böyük bir uğur ola bilər.

**ƏDƏBİYYAT**

1.Aksu, C. Folklorumuzda türkü derlemeciliği. https://dergipark.org.tr/tr/download/article-file/28554
2.Altay, S. Alman Sanatçı Paul Hindemith'in Türk Müzik Yaşamının Düzenlenmesine Yönelik Çalışmaları. https://ctad.hacettepe.edu.tr/18_35/14.pdf
3.Arabul D., Şengül, C. Kars yöresinde kayıt altına alınmamış mahalli oyunları müziklerinin müzikal açıdan incelenmesi. https://turkmuzigidergisi.com/index.php/tm/article/view/33/36
4.Barışeri, N. 1966. Bela Bartokun Türkiyedeki çalışmaları ve Türk halk müziği ile Macar halk müziği arasındaki ilişkiler. Yüksek lisans tezi. https://tez.yok.gov.tr/UlusalTezMerkezi/tezSorguSonucYeni.jsp
5.Sarıkaya, S., Tunalı, S. Bela Bartok'un çağdaş türk müziğine katkılarının incelenmesi. Trakya Üniversitesi Sosyal Bilimler Dergisi. Aralık 2014 Cilt: 16 Sayı: 2 (299-313) https://dergipark.org.

tr/tr/download/article-file/321380
6.Turhan S., Şahin S., Şimşek G., 2010. Kars, Ardahan-Iğdır türküleri ve oyun havaları. Ankara.
7.Yilmaz, H., Acar, Y. Bibliometric analysis of graduate theses on music culture in Turkiye. Journal for the Education of Gifted. Young Scientists, 11(1), 15-32, March 2023. https://dergipark.org.tr/en/download/article-file/2883122

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**Naxçıvan Dövlət Universiteti**
**E-mail:gunaymammadova6565@gmail.com**
**ORCID : 0000-0002-6072-7135***

**Gunay Mammadova**

## MUSIC FOLKLORE EXPEDITIONS IN THE REGIONS IGDIR AND KARS OF TURKEY

It should be noted that folklore compilations are systematic studies carried out to understand and protect the cultural and artistic heritage of a society. These compilations contribute to the survival and research of traditional music by recording various aspects of folk music and folklore. Therefore, research in this field is very important. The aim of this study is to reveal the importance of music folklore research in Igdir and Kars regions of Turkey. In order to create the theoretical framework of the study, a literature review was conducted, information on music folklore compilation studies in Igdir and Kars regions was investigated, document analysis was carried out in accordance with the document analysis technique, and a certain part of the publications produced by researchers in a certain period in the regions included in the research were taken into consideration.

Music folklore compilation studies in Turkey began to be carried out systematically at the beginning of the 20th century. In the 20s of the 20th century, the compilation work carried out rapidly experienced a period of stagnation. Then, in the 30s, with the invitation of the famous Hungarian composer Bela Bartok and German composer Paul Hindemith to come to Turkey to carry out compilation work, a revival in compilation work began. After the establishment of the Ankara State Conservatory, a large number of Turkish musicologists and composers participated in the compilation work in the department researching folk music. Unfortunately, the compilations carried out in different regions of Turkey have been carried out less in Kars and Igdir regions. Therefore, it is of great importance to carry out compilations of music folklore of Kars region.

Since 2000, folklore researches of these regions have been carried out by separate researchers. However, since these researches are not carried out by professional musicologists, the music aspect of the collected folklore samples remains incomplete. Musicologists, ethnographers and other researchers can analyse various cultural and historical contexts through folk music collections. These compilations provide an important resource for both academic studies and education. Nowadays, the fact that master's thesis subjects in conservatories are related to folk music and music folklore can make this work more systematic. Therefore, it can be a great success for young researchers to compile and notate the forgotten folk music samples by conducting local researches.

**Keywords:** *folklore, music, compilation, Igdir, Kars, folk music*

**Гюнай Мамедова**

## МУЗЫКАЛЬНО - ФОЛЬКЛОРНЫЕ ЭКСПЕДИЦИИ В РЕГИОНАХ ИГДЫР И КАРС В ТУРЦИИ

Фольклорные экспедиции — это систематические исследования, проводимые для понимания и защиты культурного и художественного наследия общества. Эти экспедиции способствуют сохранению и исследованию традиционной музыки, фиксируя различные аспекты народной музыки и фольклора. Поэтому исследования в этой области имеют большое значение. Целью данного исследования является выявление важности исследований

музыкального фольклора в регионах Игдыр и Карс в Турции. Для создания теоретической основы исследования был проведен обзор литературы, изучены материалы о компиляциях музыкального фольклора в регионах Игдыр и Карс, проведен анализ документов в соответствии с техникой анализа документов, а также рассмотрена часть публикаций, созданных исследователями в определенные периоды в исследуемых регионах.

Компиляции музыкального фольклора в Турции начали систематически проводиться с начала XX века. В 1920-е годы активное проведение компиляций пережило период стагнации. Затем, в 1930-е годы, после приглашения знаменитого венгерского композитора Белы Бартока и немецкого композитора Пауля Хиндемита для проведения экспедиций в Турции, началось возрождение работы по компиляциям. После создания Государственной консерватории в Анкаре в экспедициях по исследованию народной музыки участвовало много турецких музыкологов и композиторов. К сожалению, компиляции, проведенные в различных регионах Турции, были в меньшей степени осуществлены в регионах Карс и Игдыр. Поэтому проведение исследований музыкального фольклора в Карсском регионе имеет большое значение.

С 2000 года исследования фольклора в этих регионах проводились отдельными исследователями. Однако поскольку эти исследования не проводятся профессиональными музыкологами, музыкальный аспект собранных фольклорных образцов остается неполным. Музыковеды, этнографы и другие исследователи могут анализировать различные культурные и исторические контексты с помощью образцов народной музыки. Эти компиляции предоставляют важный ресурс как для академических исследований, так и для образования. В настоящее время то, что темы диссертаций в консерваториях связаны с народной музыкой и музыкальным фольклором, может сделать эту работу более систематизированной. Поэтому для молодых исследователей будет большим успехом компилировать и нотировать забытые образцы народной музыки, проводя местные исследования.

**Ключевые слова:** *фольклор, музыка, компиляция, Игдыр, Карс, народная музыка*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 18.10.2024**
**Son daxilolma tarixi:08.11.2024**